Dağlıq Qarabağ münaqişəsi Dövlət Departamentində müzakirə edildi

Yazan
22.11.13 21:24 -



Dağlıq Qarabağ münaqişəsinin yalnız davamlı və sülh yolu ilə həlli regiona stabillik və əmin-amanlıq gətirə bilər.

Bunu ABŞ Dövlət Departamentinin nümayəndəsi Cen Psaki keçirdiyi brifinqdə bildirib.

C.Psaki 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin səmasında Azərbaycanın rəsmi şəxslərinin olduğu vertolyotun vurulmasının ildönümü olmasını xatırladaraq bunun faciəvi itki olduğunu bildirib.

Dövlət Departamenti rəsmisinin sözlərinə görə, bu bir daha münaqişənin hərbi yolla həllinin mümkün olmadığını vurğulayır.
Azərbaycan və Ermənistan prezidentləri arasında bu həftə baş tutmuş görüşü xatırladan C.Psaki qeyd edib ki, Minsk qrupunun həmsədr ölkəsi kimi ABŞ münaqişə tərəfləri ilə işləməyə sadiqliyi davam etdirir.